RAST MÜZİKOLOJİ DERGİSİ
Uluslararası Müzikoloji Dergisi
www.rastmd.com

Doi:10.12975/rastmd.2016.04.02.00076




# AQŞIN ƏLİZADƏ YARADICILIĞINDA YENİ TƏMAYÜLLƏRİN ƏKSİ

Aybəniz Növrəsli[1]

## ÖZET

Təqdim edilən məqalədə Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Aqşın Əlizadənin yaradıcılığı XX əsr musiqi mədəniyyəti məcrasından araşdırılaraq təhlil olunmuşdur. O, Azərbaycan milli musiqisinin ilk neofolklorçu bəstəkarı, Qara Qarayev ənənələrinin mahir davamçı və inkişafçısı, bir sözlə, bir çox yeniliklərə imza atan bəstəkar olmuşdur. Belə ki, o, Azərbaycan milli musiqili teatr janrları içərisinə mühüm əlavələr edərək ilk milli qəhrəmanlıq baleti –"Babək"in yaradıcısı olmuşdur. Bundan əlavə, simfonik və kamera orkestri, kamera –instrumental yaradıcılıq sahəsindəki yenilikləri də danılmazdır. O, neofolklorçu bəstəkar olmaqla yanaşı, neoklassik cərəyanın da parlaq nümayəndəsi olmuş, bir çox müasir bəstəkarlıq texnikalarını öz yaradıcılığında təcəssüm etdirmişdir. Onun "Aşıqsayağı", "Pastoral", "Cəngi" kimi əsərləri kamera orkestri üçün yazılmış ilk janr şəkilləridir.

**Anahtar Kelimeler**: Aqşın Əlizadə, bəstəkar, neoklassisizm, neofolklorizm, süita, simfoniya, balet, milli ənənə, xor

# REFLECTION OF INNOVATIVE TRENDS IN AKSHIN ALIZADEH`S CREATION

Aybeniz Novrasli

## ABSTRACT

This article reveals the features of the style of creativity prominent Azerbaijani composer AgshinAlizade, in the context of the music of the twentieth century.He is the first in Azerbaijan music neofolkloristcomposer who developed the tradition of Kara Karayev, in a word, an innovator who has made an indispensable contribution. AgshinAlizadeh is the first composer who wrote a ballet on the heroic theme. In addition, it should be noted his pioneering discoveries in the field of symphonic and chamber music. As the first neofolklorist, it is also considered striking neo-classical Azeri music. Composer addressed many of the techniques in his work. His work for chamber orchestra "Ashigsayaghi", "Pastoral", "Jangi" is the first genre paintings.

**Keywords:**AgshinAlizadeh, composer, neoclassicism, neofolklorism, suite, symphony, ballet, national traditions, choir

[1] Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası aybeniz.mf@gmail.com

# ОТРАЖЕНИЕ НОВАТОРСКИХ ТЕНДЕНЦИЙ В ТВОРЧЕСТВЕ АКШИНА АЛИЗАДЕ

***Айбениз Новрасли***

**РЕЗЮМЕ**

В предлагаемой статье раскрываются черты стиля творчества видного Азербайджанского композитора АкшинаАлизаде в контексте музыки XX века. Он является первым неофольклористом в Азербайджанской музыке, композитором, который развил традиции Кара Караева, одним словом, новатором, который внес незаменимый вклад.АкшинАлизаде является первым композитором, который написал балет на героическую тему.Помимо этого, нужно отметить его новаторские открытия в сфере симфонической и камерной музыки. Являясь первым неофольклористом, он также считается ярким неоклассиком азербайджанкой музыки. Композитор обращался многим техникам в своем творчестве. Его произведении для камерного оркестра «Ашугская», «Пасторал», «Джанги» являются первыми жанровыми картинами.

**Ключевые слова:**АкшинАлизаде, композитор, неоклассицизм, неофольклоризм, сюита, симфония, балет, национальные традиции, хор

## GİRİŞ

Dövründən asılı olaraq yaranmış müasir bəstəkarlıq texnika və metodlarına müraciət hər bir yaradıcı şəxsin öz seçimi ilə bağlıdır. Hər dövrün öz müasirlik təmayülləri mövcuddur ki, bu da özündən sonrakı mərhələlərdə aktuallığını itirir və yeniliklərin yaranmasına təkan verir. Təkan dedikdə, bu, özünü pozitiv və neqativ tərəfdən göstərə bilər. Yəni hər hansı bir istiqamət, metod – ümumən, meydana çıxan "yenilik" özündən əvvəlki mərhələnin aparıcı ənənəsinə ya etiraz olaraq yaranır, ya da onu inkişaf etdirərək daha təkmilləşmiş forma almasına dayaq olur. Misal olaraq – serial texnikanın "çərçivəli" quruluşuna əks qütbdə yaranmış aleatorik metodu; yaxud klassik üslubun təkmilləşməsi məqsədilə yaranmış neoklassik istiqaməti göstərərək deyilən məntiqi sübut etmək olar. XX əsrin 60 – cı illəri Azərbaycanda musiqi istiqamətinin dəyişildiyi, yeniliyə üz tutduğu bir mərhələ idi. Bu "yenilikçi hərəkatı"nın başçısı isə artıq Azərbaycan musiqisinin təşəkkülündəki rolu ilə özünü təsdiqləmiş, bir sıra janrları yüksək inkişaf nöqtəsinə çatdırmış, bəzi janrların isə etalonunu yaratmış Qara Qarayev idi. Q.Qarayev sayəsində Azərbaycan musiqi mədəniyyəti onun estetikası və poetikasında yerini tapmışdır.

60 - 70 – ci illər Azərbaycan musiqi tarixi və incəsənətinin intibahı, Q.Qarayev, F.Əmirov, Niyazi, C.Hacıyev kimi sənətkarların yaradıcılıq dövrünün zirvəsinə təsadüf etdiyi üçün bu dövrdə yaradıcılığa qədəm qoyan gənc bəstəkarları sözün yaradıcı mənasında xoşbəxt adlandırmaq lazımdır. Məhz həmin dövrdə yaradıcı nəslə qoşularaq artıq özünün ilk uğurlu addımlarını atmış və onun gələcəyinə böyük ümidlər bəsləyən müəllimləri – Q.Qarayev və C.Hacıyevin gözləntilərini illər sonra doğruldacaq gənc bəstəkar Aqşın Əlizadə idi.

Danışılan dövr Azərbaycan musiqisi kontekstində inkişaf etmiş təmayüllərə nəzər salsaq, neoklassik, neofolklor, aleatorik, seria metod və üslubların istifadəsinə rast gəlinir. Adı çəkilmiş terminlərə bütövlükdə bir bəstəkar yaradıcılığında müraciət olunması musiqişünaslığın diqqətini özünə cəlb edən cəhətdir. Bu xüsusiliyi müasir Azərbaycan musiqisinin inkişafında ideya və mənəviyyatından irəli gələni əsirgəməyən A.Əlizadə yaradıcılığında müşahidə etmək olar.

Yaradıcılığının ilk dövrlərindən etibarən Qərbi Avropa meylləşməsinə o qədər də üstünlük verməyərək bu üsullara tabe olmanı çərçivələnməyə bərabər tutan A.Əlizadə Qərbi Avropa texniki vasitələrini Azərbaycan musqisinə bilavasitə tabe etdi.

O, xarici bəstəkarları təqlid etməyi onların dünyalarına qəfil daxil olmağa bərabər hesab edir. Müasir musiqi və musiqi texnikalarını inkar etməyən A.Əlizadə bu metodlardan istifadəyə qədər professional bəstəkarlıq məktəbi keçməyi, klassik janrların hamısında əsər yazmağı labüd hesab edir. "Pikasso kimi rəssam - modernist olmazdan əvvəl adi at rəsmini çəkməyi bacarmaq" məntiqinə əsaslanır.

Onun yaradıcılığına daxil olan istər kiçik, istərsə də böyük həcmli əsərlərdə akademik bəstəkarlıq üslubu müasirliyin çoxsaylı təmayüllərilə birləşmişdir. Bəstəkar təkcə hər hansı bir müasir texniki bəstəkarlıq metoduna istinad edərək əsər yazmağı düzgün hesab etmir və çərçivələnmədən uzaq olmağı üstün tutur. A.Əlizadə müasir texnikadan məqsədyönlü şəkildə istifadə etməsə də, bu, onun yaradıcılıq laboratoriyasında çox vaxt qeyri – ixtiyari alınır.

Bu baxımdan onun yaradıcılığında məqsədyönlü şəkildə yalnız aleatorik üsluba istinadən yazılmış yeganə əsər vardır. "Ekspressiyalar" adlanan pyes 12 simli alət üçün nəzərdə tutulmuşdur. Bu, Azərbaycan musiqisində müasir texnika – aleatorika əsasında yazılmış ilk əsərlərdən olub Q.Qarayevin başlanğıc qoyduğu müasir texnikalara müraciətin davamıdır.

Hər bir Azərbaycan bəstəkarı öz yaradıcılığında Qərb və Şərq konteksti ilə qarşılaşır və hər bir "musiqi dövləti"nin öz milli istifadə mənbələri olduğu kimi Azərbaycan musiqisində də bu məntiq özünü təsdiq edir. Bu baxımından yeni musiqi istiqaməti, neofolklorizm kəşf olunur. A.Əlizadə bu istiqamətin parlaq nümayəndəsi kimi çıxış edərək xalq musiqimizdən sitat şəklində deyil, özünəməxsus tərzdə yeni texniki vasitələrə istinadən istifadə etmiş, beləliklə öz seçilən dəst – xəttini yaratmışdır. A.Əlizadənin kamera orkestri üçün yazdığı "Aşıqsayağı" pyesi aşıq melosunun müasir interpretasiyada təqdimindən ibarətdir. "Aşıqsayağı" ilə yanaşı, bu baxımdan yazılması 1978 –ci ilə aid olan "Cəngi"nin də adı çəkilməlidir.

Milli folklor nümunəsi olan kollektiv rəqs "Cəngi"yə də ilk dəfə Ü.Hacıbəyli müəllif imzası atmış, sonradan A.Əlizadə müraciət edərək onu məzmun baxımından neofolklor nümunəsinə çevirmişdir. Bəstəkarlıq metodu yönümündən nəzər yetirsək, "Cəngi" müasir bəstəkarlıq texnikası sayılan, əsası amerika bəstəkarı F.Glass tərəfindən qoyulmuş minimalizm üslubunda yazılmışdır.

A.Əlizadə yaradıcılığında digər bir janr neologizmi özünü "Bayatılar"da aydın açıqlayır. Müasirlik yolunda janrın inkişafına təkanı A.Əlizadənin Azərbaycan musiqisində yaratmış olduğu a`capella üçün folklor mətnli ilk silsiləvi əsər -"Bayatılar" vermişdir. Bu əsər – 1969 – cu ildə bəstəkarların Ümumittifaq müsabiqəsində I yerə layiq görülmüşdür. İnstrumental müşayiətsiz nəzərdə tutulma əsərin neofolklor cəhətlərindən biridir.

"Bayatılar" 10 hissədən ibarət olub Azərbaycanın müxtəlif zonalarından toplanmış mətn əsasında yazılmışdır. Əsərdə texnika baxımından sonorika, janr baxımından mərsiyə tipli oxuma aleatorik ifa tərzi ilə açıqlanır.

60 –cı illərdə Azərbaycan musiqisinə daxil olan yeni istiqamətlərdən biri – neoklassisizm idi ki, Azərbaycan müasir bəstəkarlıq məktəbinin zirvəsində duran Q.Qarayev tərəfindən onun son prelüdlərində musiqimizə gətirilmişdir. Bu ənənə A.Əlizadə yaradıcılığında da parlaq şəkildə əks olunaraq böyük bədii əhəmiyyət kəsb edən II - Kamera simfoniyasının yaranmasına gətirib çıxarır.

Neoklassisizm – "neo – classicisme" sözündən yaranaraq XX əsr akademik musiqi cərəyanı olub nümayəndələri erkən klassisizm və klassisizməqədərki dövrün üslub

xüsusiyyətlərini əks etdirməyə çalışmışlar. Bu cərəyan 1920 - 1930 – cu illərdə yüksək inkişaf mərhələsinə çatmış, Azərbaycan musiqisinə 60 – cı illərdə daxil olmuşdur.A.Əlizadə yaradıcılığında neoklassik ünsürlər kamera orkestri janrı üçün nəzərdə tutulmuş əsərdə özünü göstərmişdir. Kamera simfoniyasını bəstəkar alman rəssamı A.Dürerin qravürlərinin mövzularından ilhamlanaraq yazmışdır.

Simfoniyada neoklassisizmin bariz cəhəti kimi əsərin III hissəsində XVII – XVIII əsrlərin musiqisini imitə edən melodiyada çembalo alətinin antik abu – hava təəssüratı yaratmasını göstərmək olar.

Neoklassik əsərlərin xarakteri üslublaşmaya çox yaxındır. Üslublaşma – hər hansı bir üslubun xarakterik cəhətlərinin həmin üslub üçün adətkar olmayan bədii kontekstdən imitasiyası deməkdir. Bu istiqamətin xüsusiyyətləri – antik incəsənət, İntibah dövrü, barokko və ya klassisizm dövrü ənənələrinə qayıdışdan ibarətdir. Neoklassisizmdə qədim musiqi sanki təqlid olunaraq musiqinin modernizasiyaya uğramış dili ilə həmahəngləşir, müasir musiqi vasitələri ilə əks olunur.

A.Əlizadənin Kamera simfoniyasında yeni təmayüllər – neoklassisizm neofolklorizmlə birləşir. Bu simfoniyanın əsasını konsert başlanğıcı təşkil edir. Əsərin yazıldığı dövrdə kamera orkestri üçün bəstələrin artması həmin dövrdə N.Rzayevin başçılığı ilə Kamera orkestrinin yaranmasından irəli gəlirdi. Silsiləvilik və obraz dairəsi baxımından ABA quruluşlu simfoniyanın kənar hissələri daha çılğın, qədim klassik rəqs janrı manerasında, ikinci hissə subyektiv lirik mərkəz rolunu oynayaraq sonor effektli monodik Rast ladına əsaslanır.

Bu simfoniyanın I hissəsinin sonunda istifadə olunan – XVI əsrdə Azərbaycanda məskunlaşmış Qaraqoyunlu qəbiləsinə məxsus olan “Qarabağın ağırı”, sonralar isə - XIX əsrin sonu, XX əsrin əvvəllərində “Vağzalı” adlanan rəqsin kiçik elementlərinin işlənilməsi neofolklor ənənəsindən xəbər verir. Mövzu “doğranaraq” ibarələrə bölünür, bu hissə daxilində əsas və köməkçi mövzuların dəfələrlə təkrarı əsəri minimalistik üsluba yaxınlaşdırır.

Bəstəkar bu üslubda yazılmanı qarşısına məqsəd qoymasa da, I hissəni ideyalarında formalaşan və həmin dövr Azərbaycan musiqisi üçün mümkün olan “xammal”dan istifadə edərək meydana gətirmişdir.

Bu nümunədə də təsdiq olunur ki, bəstəkar xalq musiqisindən nümunə olaraq sitat gətirməmiş, mövzunu əsas özəyindən yaratmışdır.

II hissədə milli musiqi ilə Avropa musiqi janrının birləşməsi müşahidə olunur. Muğam təfəkkürü xoral janrı ilə birləşir. Neoklassisizm üçün vacib cəhət polifonik – İ.S.Bax yaradıcılığındakı janrlara yenidən müraciətdir. Bu, birbaşa olaraq Q.Qarayev yaradıcılığında da özünü göstərmiş olur. Yada salaq ki, Q.Qarayev ilk dəfə Azərbaycan musiqisinə xoralı tətbiq etmişdir.

Əsərin orkestrləşməsi Avropa alətləri əsasında olsa da, onlar arasında yaranmış tembr münasibətləri milli Azərbaycan alətlərinə yaxınlaşır.

Simfoniyanın ən kiçik elementlərinə belə böyük diqqət və professionalllıqla yanaşma Concerto grosso`dan gələn ənənənin tətbiqi kimi qəbul oluna bilər.

1966 – cı ilə təsadüf edən premyera Moskva Bəstəkarlar evində keçmiş, əsərə görə bəstəkar Lenin komsomolu mükafatı qazanmışdır.

Bəstəkar ciddi klassik janr nümunəsi sayılan, ilk uğurlu əsəri olaraq 1959 –cu ildə Moskvada gənc bəstəkarların yaradıcılıqlarına Ümumittifaq baxışda I dərəcəli Diplomla təltif olunmuş fortepiano üçün Sonatasında da neoklassisizm metodlarına istinad etmişdir. Yəni klassik forma daxilində xalq melodizmindən sitat kimi deyil, metod, vasitə kimi istifadə - təkrar,

variantlıq, sadə melodik dil, zidd melodik fikirlərə demək olar ki, müraciət etməmək – Aqşın Əlizadə neofolklorizminin xarakter cəhətləri kimi ilk əsərində təcəssümünü tapır.

**SONUÇ**

Aqşın Əlizadə 60 – cı illərdə Azərbaycan musiqisinə daxil olmuş, Q.Qarayev və C.Hacıyev məktəbinin nümayəndəsidir. Həmin dövr musiqidə baş verən "hadisələrə" fəal şəkildə qatılan bəstəkar yazdığı əsərlərə ətrafda baş verən abu – havanı hopdurmağı bacarmışdır. Yaradıcılığında dövrün səciyyəvi təmayüllərini əxz etdirməklə neoklassisizm, neofolklorizm, sonor, aleatorika kimi texnika və istiqamətləri Azərbaycan musiqisinin mənbələri ilə birləşdirməyə nail olmuş və beləliklə, öz dəst – xəttini yaratmışdır.

**KAYNAKLAR**


1. Dadaşzadə Z., Simfoniyanın fəzası. Bakı, 1999
2. Tağızadə A., A.Əlizadə. Bakı, 1986